# “Təfəkkür” universitetinin tələbələri III oldular

Noyabrın 8 – də Bakı Humanitar Kollecində Bakı Şəhər Gənclər və İdman Baş İdarəsinin, Nərimanov Rayon Gənclər və İdman İdarəsinin və Kollecin Tələbə Gənclər Təşkilatının birgə təşkilatçılığı ilə **“9 noyabr – Dövlət Bayrağı Günü” münasibəti ilə ali və orta ixtisas təhsil müəssisələrinin tələbələri arasında “Nə? Harada? Nə zaman? intellektual oyunu keçirilmişdir.**

İntellektual oyunda Nərimanov rayonunda fəaliyyət göstərən ali və orta ixtisas təhsil müəssisələrinin tələbələri iştirak etmişlər. Olduqca gərgin keçən mübarizədə **“Təfəkkür” Universitetinin komandası III yeri tutmuşdur**. Bu münasibətlə **Universitetin rektoru professor Rahim Hüseynov** intellektual oyunda fəal iştirak edən “Təfəkkür” komandasının üzviləri **Roya Hacıyevaya, Rahib Cəlilova, Azad Cəbrayılova, Aslan Əliyevə, Elşən Tağızadəyə** təşəkkür elan etmişdir.

Rektorun əmri universitetin bütün qruplarında elan edilmişdir.